# Əli Nəcəfxanlının 65 illik yubileyi keçirildi







**Noyabrın 26-da Sumqayıtdakı 1 nömrəli Uşaq- Gənclər İnkişaf Mərkəzində istedadlı şair-publisist, "Əməkdar jurnalist" Əli Nəcəfxanlının 65 illik yubileyi keçirildi. Tədbir AYB- nin Sumqayıt bölməsi və 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə həyata keçirildi.**

1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Əntiqə Rzayeva qonaqları salamladıqdan sonra sözü AYB Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddinə verdi. Gülnarə xanım Əli Nəcəfxanlı yaradıcılığının məziyyətlərindən danışdı.

Şairin qələm dostları, tanınmış şair və yazıçılar - Əvəz Mahmud Lələdağ, Rafiq Yusifoğlu, Aslan Bayramov, Zirəddin Qafarlı, Məryəm Aslanqızı, Natiq Qubadoğlu, Xəqani Abbasəli Öztürk, Nazir Rüstəm, Rəfiqə Şəms, Fazil Abbasquluzadə, Şahin Şəfiyev, Nəriman Nərimanlı, İlhamə Məhəmmədqızı, Hafiz Eynullayev, Əyyar Cəfərov, Rəfail Laçınlı, Gülnar Ümid, Əbülfəz Əhməd, Lilpar Cəmşidqızı və başqaları çıxış edərək Əli Nəcəfxanlının yaradıcılığından bəhs etdilər.

Bədii qiraət dərnəyinin üzvlərinin ifasında Əli Nəcəfxanlının şeirləri səsləndirildi.

Sumqayıt Dövlət Dram Teatrının aktyoru Elay Xasıyev və Sumqayıt Musiqi Kollecinin IY kurs tələbəsi Vüsalə Məmmədovanın ifa etdikləri mahnılar məclisə xüsusi rövnəq bəxş etdi.

**Sonra söz Əli Nəcəfxanlıya verildi. Yubilyar tədbirin təşkilində əməyi keçən hər kəsə təşəkkürünü bildirdi və yeni şeirlərini oxudu.**

**İlhamə MƏHƏMMƏDQIZI**